*1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür*

# Hər uşağın ailəyə ehtiyacı var...



Görəsən, dünyada ana qucağından isti yer tapılarmı? Ana laylasından daha şirin bir melodiyanı nota düzən tapılacaqmı görəsən? Çətin ki... Axı ana qucağı da, ana laylası da ilahidən yaranıb və bəşər övladı özünü dərk edəndən bu müqəddəsliyin nuruna bələnib. Nə yazıqlar ki, bu xoşbəxtliyin sevincini hamı bərabər yaşamır. Ata-ana qayğısından məhrum olub özgələrin himayəsində yaşamaq nə qədər ağır olsa da, günümüzün reallığıdır...

1 iyun - Beynəlxalq Uşaqları Müdafiə Günü ərəfəsində yolumuzu 1 nömrəli uşaq evindən saldıq, müəssisənin direktoru Nərminə Zöhrabova ilə söhbətləşdik, sabahımız olan uşaqlara dövlət qayğısından danışdıq, xeyirxah, yaxşı əməl sahibi olan insanları hörmətlə xatırladıq. Nərminə xanım deyir: “Bu gün müstəqil Azərbaycan dövləti uşaq evləri və internat məktəblərində yaşayan, təhsil alan kiçik vətəndaşların tam qayğı ilə əhatə olunması üçün hər cür şərait yaradır. Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər isə ölçüyəgəlməzdir. Fondun təhsil sferasında həyata keçirdiyi ən genişmiqyaslı proqramlardan biri “Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramıdır. Proqram çərçivəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Bakıda və Abşeronda yerləşən uşaq evləri və internat məktəblərinə şəxsən baş çəkmiş, bu müəssisələrdə mövcud olan problemlərin həlli üçün xüsusi fəaliyyət proqramı hazırlanmışdır ki, o da uğurla həyata keçirilməkdədir.

Uşaq evlərində, internat məktəblərində tərbiyə olunan uşaqlar, qaçqın və məcburi köçkün ailələrindən olan və təhsildə fərqlənən şagirdlər üçün müxtəlif bayram şənliklərinin təşkili artıq xoş bir ənənəyə çevrilmişdir. Fondun prezidentinin təşəbbüsü ilə uşaqların asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədilə Nizami rayonundakı 1 nömrəli uşaq evi üçün Şüvəlan qəsəbəsində yay düşərgəsi yaradılmışdır. Valideyn himayəsindən uzaq böyüyən gənclərin toy mərasimlərini təşkil edən fond həm də onların sabahına yaşıl işıq yandırmış olur.

Ən mühüm, əhəmiyyətli tədbirlərdən biri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə uşaq evlərində tərbiyə alan 18 yaşdan yuxarı qızlar üçün 50 mənzillik, 100 nəfərlik yaşayış binasının tikilməsi oldu. 2009-cu il yanvarın 22-də Mehriban xanım bu binanın açılışında iştirak etdi. Hər cür şəraiti olan, bütün zəruri avadanlıqlarla təchiz edilmiş mənzillər kimsəsiz, valideyn himayəsindən məhrum gənc qızların istifadəsinə verildi. Bununla da daha ağır və qlobal əhəmiyyətli layihə reallaşdırıldı. Heydər Əliyev Fondunun qayğısı ilə əhatə olunan Azərbaycan uşaqları istedadları ilə artıq Avropanı, dünyanı dolaşır, “Azərbaycanın xoşməramlı mələkləri” Avropanın mədəniyyət mərkəzlərində hamını heyran qoyur.

Bütün bu tədbirlərlə yanaşı, Mehriban xanım Əliyevanın söylədiyi kimi, heç bir dövlət müəssisəsi, o nə qədər müasir, gözəl təmir olunsa, avadanlıqlarla təmin edilsə də, heç bir vaxt ailə mühitini əvəz edə bilməz. Məhz buna görə də Fondun ən böyük məqsədi odur ki, bütün uşaqlar ailə şəraitində tərbiyə alsınlar. Hazırda Heydər Əliyev Fondunun YUNİSEF-lə birlikdə həyata keçirdikləri “Deinstitutlaşma proqramı” da buna xidmət edir.

Ən ali məqsəd uşaq evlərindəki uşaqların bioloji və ya alternativ ailələrə verilməsini təmin etməkdir. “Hər uşağın ailəyə ehtiyacı var!” – Fondun uğurla həyata keçirdiyi bu milli məlumatlandırma kampaniyası da uşaqların ailə mühitində böyüməsinə yardım məqsədilə reallaşdırılır.

Humanizm və insanpərvərlik prinsipləri baxımından yardıma ehtiyacı olan uşaqlara qayğının vacibliyini xüsusi vurğulayan Mehriban xanım Əliyeva çıxışlarının birində demişdir: “Ailəyə bağlılıq, ailə dəyərləri, uşaqlara qayğı, böyüklərə hörmət Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlərdən biridir... Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm. Əlbəttə, hər bir valideyn arzulayır ki, onun uşağı sağlam, bilikli, savadlı, xoşbəxt böyüsün və bunun üçün əlindən gələni edir.” O, həmçinin vurğulayır ki, valideyn himayəsindən məhrum olmuş uşaqların taleyi, gələcəyi dövlət orqanlarının fəaliyyəti ilə yanaşı, beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti təşkilatlarının və ən nəhayət, hər birimizin fəallığından asılıdır.

Bəli, Mehriban xanımın bu sözlərində böyük həqiqət var və biz gündəlik işimizdə hər cür hallarla rastlaşırıq. Bizə diqqət, qayğı göstərilməsə, heç bir nəticə əldə edə, uğur qazana bilmərik. Onu da qeyd edim ki, 2012-ci ildən Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamına keçəndən sonra işimizdə bir qədər də irəliləyiş var. Uşaqların əl işlərindən ibarət sərgilərin təşkilində, xarici səfərlərin təşkilində Heydər Əliyev Fondu ilə yanaşı, Bakı Şəhər İcra Hakimiyyətinin də dəstəyini hiss edirik.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2014-cü ildə uşaqların 500 adda əl işi Müasir İncəsənət Muzeyində sərgiləndi. “Balaca əllərin böyük işləri” adı altında təşkil olunan sərgidə Mehriban xanım Əliyeva, Leyla xanım Əliyeva da iştirak etmiş və sərgi böyük tamaşaçı marağına səbəb olmuşdur. Bu ilin aprelində Türkiyənin İzmir şəhərində “23 Nisan Cocuq bayramı”nda iştirak edən 17 ölkənin təmsilçiləri arasında bizim istedadlı uşaqlarımız ən yüksək yerlərə layiq görülüblər. Bütün bunları isə kömək olmadan həyata keçirmək mümkün deyil.

2015-ci il yanvarın 15-də Mərkəzi Klinika ilə uşaq evi arasında müqavilə imzalanmışdır. Müqaviləyə əsasən xəstəliyin növündən asılı olmayaraq uşaqlar səhhətlərində problem yarandıqda burada müayinə və müalicə oluna biləcəklər.

Uşaq evləri... eyni taleyi bölüşən körpələrin, yeniyetmələrin rahatlıq tapdığı bu məkanlar onların tək bircə ehtiyacını ödəməyə qadir deyil. Hər şeylə təmin olunsalar da, isti ana qucağına, şirin ana laylasına möhtacdırlar.

**Zümrüd QURBANQIZI,**
**“Respublika”.**